**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 14/5

Bakı şəhəri 18 noyabr 2016-cı il

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı haqqında

Müasir dövrdə Azərbaycan Respublikasının əsas strateji hədəflərindən biri intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulmasıdır. Biliklər cəmiyyətinin qurulması isə müasir tələblər səviyyəsində informasiya-kommunikasiya texnologiyalarına əsaslanan informasiya cəmiyyətinin inkişafı ilə bilavasitə bağlıdır. Bu istiqamətdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 sentyabr 2016-cı il tarixli Sərəncamla "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Dövlət Proqramının icrası AMEA-nın üzərinə bir sıra mühüm vəzifələr qoymuşdur. Həmin vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Tədbirlər Planının icrası üzrə məsul qurumlara tapşırılsın ki, Dövlət Proqramının icrası üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi təmin edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT